**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**
**və Macar Mərkəzi Statistika İdarəsi arasında**
**statistika sahəsində əməkdaşlıq haqqında**

# S A Z İ Ş

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Macar Mərkəzi Statistika İdarəsi, statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı surətdə maraqlı olaraq aşağıdakılar barədə razılığa gəlirlər:

## Maddə 1

Tərəflər qarşılıqlı münasibətləri davam etdirməyə və beynəlxalq səviyyədə qəbul edilmiş, müqayisəli göstəricilərin istehsalı və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin aparılmasına dair razılığa gəldilər. Tərəflər statistik məlumatların məxfiliyi və qorunması ilə bağlı hər bir Tərəfin milli qanunlarından irəli gələn qaydalara hörmətlə yanaşırlar. Məlumatlar mübadiləsi ancaq yuxarıda göstərilən qaydalara əməl edildiyi halda həyata keçirilə bilər.

## Maddə 2

Tərəflər statistikanın aşağıdakı sahələrində əməkdaşlığı həyata keçirəcəklər:

- ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik nəşrlərin və materialların mübadiləsi;
- digər Tərəfin iş təcrübəsinin öyrənilməsi üçün mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkil edilməsi;
- beynəlxalq statistika təşkilatları çərçivəsində əməkdaşlığa dair məsələlər üzrə qarşılıqlı əlaqələr.

## Maddə 3

Əməkdaşlıq əvvəlcədən razılaşdırılmış tədbirlər planı və mövcud maliyyə vəsaitlərinə uyğun olaraq həyata keçiriləcəkdir.

## Maddə 4

Əməkdaşlıq prosesində digər tərəfdən əldə edilən informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində əldə edilən informasiya Tərəflərin maraqları əleyhinə istifadə edilə bilməz.

## Maddə 5

Əməkdaşlığın koordinasiyası hər iki Tərəfdən təyin olunmuş vəzifəli məsul şəxslər tərəfindən həyata keçiriləcəkdir.

## Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 7-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

## Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri istənilən vaxt bu Sazişi ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə bildiriş göndərə bilər. Saziş bu cür bildiriş alındıqdan altı ay sonra ləğv olunacaqdır.

Bu Saziş Bakı şəhərində "7" iyul 2008-ci il tarixində, iki əsl nüsxədə, Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətnə istinad ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi adından** | **Macar Mərkəzi Statistika İdarəsi adından** |